# Günah

*hekayə*



Meyxoş Abdullah

...Səhhətiylə bağlı vaxtından əvvəl istefaya göndərilmişdi. Dincəlmək üçün səs-küydən uzaq, qalın meşəliklə əhatə olunmuş bu yer, azacıq da olsa ona rahatlıq gətirirdi. Meşənin ətəyindən gözyaşı kimi dupduru çay axırdı. Hava təmiz, ətraf sakitlikdi.

O, hər gün nahardan sonra tilovunu götürər və balıq tutmaq üçün çaya enərdi. Çay şirinsulu olduğundan buradakı balıqlar da çox dadlıydı. Başı ova qarışanda ağrıları onu bir anlıq da olsa rahat buraxırdı.

Sifətindəki dərin yanıq izləri görkəmini eybəcər hala salmışdı. Üzünün sağ tərəfinin dərisi çənəsinə doğru yığıldığından, sağ gözü hədəqəsindən çıxmaq dərəcəsindəydi. Sol gözü isə, güclü yanığın təsirindən kor olmuşdu. Hər iki qolunda dərin yanıq izləri görünürdü.

Gündüzlər dağın sərin havası əsəblərini sakitləşdirib canına rahatlıq gətirsə də, gecələr soyuğun təsirindən bədəninin yanıq yerləri yamanca sızıldayırdı. Səhəri çox vaxt dirigözlü açardı. Özünü tox tutmağa çalışsa da, dəhşətli ağrılar bir anlıq da olsun onu rahat buraxmırdı.

İki il olardı ki, ailəsindən də ayrı düşmüşdü. Arvadı qızını da götürərək onu tərk edib getmişdi. Əslində o, ailəsinin bu hərəkətinə haqq qazandırırdı. - Neyləməliydi bəs, ömrünü mənimlə çürütməliydi? - deyə öz taleyinə acıyırdı.

Amma onlar üçün möhkəmcə darıxırdı. Qızını yadına salanda uşaq kimi kövrəlirdi.

Ömrüboyu səs-küy içində yaşamış birisi üçün belə sakitlik, insanlardan uzaq yaşamaq ağır gəlirdi. O da insan idi, kiminləsə söhbət etmək, dərdləşmək istəyirdi. Buralara isə nadir hallarda insanlar gəlib çıxırdılar. Bu yerlər şəhərdən çox-çox uzaq bir yer idi, həm də, bu kimsəsiz yerlər adama çox darıxdırıcı görünürdü.

Belə günlərin birində, o, səhər yuxusundan ayılıb gördü ki, yaşadığı yerdən azca aşağıda, çayın qırağında bir alaçıq qurulubdur. Ürəyində sevinsə də, alaçığa tərəf getməyi hələlik ağlından belə keçirmədi.

Günortaya yaxın alaçıqdan iki nəfər çıxıb çaya doğru endilər. Onlardan biri qırx, qırx beş yaşlarında kişi, digəri isə iyirmi, iyirmi beş yaşlarında olan gənc qadın idi. Çox xoşbəxt görünürdülər. Günboyu bir-birinə sarılmış vəziyyətdə çaykənarında dolaşan bu cütlüyün xoşbəxt həyatına həsəd aparmalı idi. Vaxtilə, o da həyat yoldaşıyla belə mehriban olmuşdu, onu dəlicəsinə sevmişdi. İndi isə yalquzaq kimi tək-təhna meşədə dolaşırdı.

Bir gün balıq tutduğu zaman arxasında kiminsə dayandığını hiss etdi. Dönüb baxanda həmin gənc qadını gördü. Qadın, kişinin sifətini görən kimi qorxusundan qışqırdı və bir-iki addım geri çəkildi. Kişi tez üzünü çevirib astadan:

- Bağışlayın, gəlişinizi hiss etmədim. Deyəsən, sizi qorxutdum? Yəqin, zənn etdiniz ki, pəzəvəng bir ayı ilə rastlaşmısınız? Qorxmayan, bir müddətdir ki, burada yaşayıram ayı-zad gözümə dəyməyibdir. Deyəsən, mənim bu eybəcərliyim o yazıq heyvanları da buradan didərgin salıbdır.

Kişinin bu mehriban davranışı və səmimiyyəti qadını utandırdı. O, bayaqkı hərəkətinə görə peşman oldu.

Qadının bu hərəkətini kişi də hiss etdi və onu düşdüyü vəziyyətdən çıxarmaq üçün dedi:

- Mən hər gün burada balıq tuturam. Tutduğum balıqları yenidən çaya buraxıram. Axırda isə bircəciyi mənim nahar yeməyimə kifayət edir. O yanındakı vedrəni qadına göstərib əlavə etdi:

- Götürün, bu gün ovum uğurlu olubdur, görün nə qədər balıq tutmuşam.

Qadın vedrəyə yaxınlaşıb əlini onun içinə saldı və bir ədəd iri xanı balığı götürüb kişiyə təşəkkür etdi.

- İstəsəniz hər gün gəlin, burada təzə balıq olur - deyə, kişi dilləndi.

Səhəri gün həmin vaxt qadın yenə gəldi. Yenə kənarda dayanıb kişinin balıq ovuna tamaşa etdi. Kişi qadını qorxutmamaq üçün bacardıqca geriyə baxmırdı. Bunu qadın da hiss edirdi. Amma daha ondan qorxmurdu.

Bir müddət keçmişdi, artıq onlar dostlaşmışdılar.

Qadın hər gün balıq ovuna tamaşa etmək üçün kişinin yanına gələr və gedəndə də kişi onu təzə balığa qonaq edərdi.

Qadını həmişə bir sual düşündürürdü, bu adama nə olub, onu buralarda tənha dolaşmağa nə vadar edir? Onun ailəsi yoxdurmu?

Bu suallar onu narahat etsə də kişinin qəlbinə toxunacağından ehtiyat edərək, bu barədə ondan heç nə soruşmurdu.

Amma bir gün qadın özündə cəsarət tapıb dedi:

- Sizdən bir şey soruşmaq olar?

- Bilirəm, nə soruşacaqsınız? - deyə kişi dilləndi.

Qadın maraqla:

- Nə soruşacağam?

Kişi:

- Soruşacaqsınız ki, sizə nə olub, buralarda tənn dolaşmağa sizi nə vadar edir? Ailəniz yoxdurmu? - Düzmü dedim?

Qadın çiyinlərini çəkərək:

- Hə, əlbəttə, eynən bunları soruşacaqdım.

Kişi ilk dəfə olaraq dönüb qadına diqqətlə baxdı. Neçə gündən bəri söhbət etiyi qadının belə gözəl olacağını heç təsəvvürünə gətirməmişdi. Onun gözəlliyi qarşısında öz sir-sifətinin eybəcərliyini xatırlayıb utandı və başını aşağı salıb yavaşca:

- Bu uzun əhvalatdır, sizə o qədər də maraqlı gəlməyəcək, ona görə də danışmasam yaxşıdır.

Qadın əl çəkmədi:

- Xahiş edirəm deyin, necə olub ki, bu hala düşmüsünüz?

Kişi qadının asanlıqla ondan əl çəkməyəcəyini görüb dedi:

- Mən hərbçiydim, komandir olduğum bölüklə meşə zolağındakı postda keşik çəkirdik. Bizdən bir xeyli aralı, dağın ətəyində salınmış istirahət zonasında insanlar dincəlirdilər.

Biz onlardan bir xeyli uzaq olsaq da, insanların deyib-gülmələrinin, çal-çağırlarının səsini eşidirdik. Oradakılar çox xoşbəxt görünürdülər. Doğrudan da, biz hərbiçilər onlara həsəd hissiylə baxırdıq.

Bir dəfə gecə vaxtı postu yoxlamaq üçün çıxmışdım. Hər şey öz axarınca gedirdi. Gecə sakit, göy üzü tər-təmiz idi. Gecənin bu sakitliyi adamın ruhunu oxşayırdı, uzanıb doyunca yatmaq istəyirdin.

Birdən həmin o istirahət düşərgəsindəki balaca daxmaların birinin alovlandığını gördüm. Alov gecənin qaranlığında şölə saçırdı. Əvvəlcə, nə baş verdiyini anlamadığımdan çaşıb qalmışdım, nə edəcəyimi bilmirdim. Gecəyarısı olduğundan oradakıların hamısı şirin yuxuda idilər. Ona görə də, baş verən hadisədən heç kəsin xəbəri yox idi.

Mən iki əsgərlə birlikdə hadisə baş verən yerə yüyürdük. Alov balaca taxta daxmanı tamam bürümüşdü, içəri girmək mümkün deyildi. Vaxt da itirmək olmazdı, içəridəkilər yana bilərdilər. Ona görə də, özümü daxmanın pəncərəsindən içəri atdım. İlk növbədə yataq otağını axtardım. Zənnim məni aldatmamışdı yataqda iki nəfər, bir kişi, bir də bir qadın qucaqlaşıb yatmışdılar. Ani olaraq onların xoşbəxtliyi barədə fikirləşdim, axı, bu biçarələr bir neçə dəqiqədən sonra başlarına gələcək dəhşətli hadisədən xəbərsiz idilər.

Otaq qaranlıq və tüstü idi. Adam güclə nəfəs alırdı. Zəhərli tüstü az qalırdı ki, adamın canını alsın. Bayırda yalmanan alov dillərinin arada otağı işıqlandırmasından, çətin də olsa qaraltıları seçə bilirdim. Əvvəlcə, qadını qucağıma götürdüm, o bərk yuxulu, həm də, möhkəmcə içkili idi. Pəncərəyə yaxınlaşıb onu bayırda dayanan əsgərlərə tərəf uzatdım. Sonra geri qayıdıb kişini qucağıma aldım. Burnuma dolan acı tüstünün içindən kəskin spirt qoxusu da gəlirdi. Yəqin, bu cütlük ağıllarını itirənəcən içmişdilər, yoxsa, bu boyda həngamədən necə olsaydı xəbər tutardılar.

Onları vaxtında xilas etdiyimə görə çox sevinirdim. Geri döndüm, kimsənin otaqda qalıb-qalmamasını yoxlamaq istəyirdim. Elə bu vaxt otağın tavanının başıma uçduğunu gördüm. Od-alov bürümüş tavanın altında qaldım. Bədənim alışıb yanırdı, dəli kimi qışqırırdım. Ağlım başımdan çıxana kimi kömək çağırdım. Sonra huşumu itirdim, nələrin baş verdiyindən xəbərsiz oldum.

Ayılanda özümü hospitalda, baş-gözümün sarğı içərisində olduğunu gördüm. Bütün bədənim yanmışdı, ən çox da yanan sifətim idi. Gözümün biri tamam yanmışdı, o biri isə görmə qabiliyyətinin yarısını itirmişdi. Altı aya yaxın hospitalda yatdım. Yanıqdan əlavə güclü stress də keçirmişdim. Bir müddət özümə gələ bilmirdim. İndinin özündə də, bəzən əsəblərimi cilovlaya bilmirəm. Bax, axırı da bu, - deyə kişi dərindən köks ötürdü... - Amma sevinirəm ki, əziyyətim hədər getməyibdir, insanları od-alovdan qurtarıb, onları həyata qaytarmışam. Onlar xoşbəxt insanlar idi, sevgidolu həyat yaşayırdılar. Bircə, təsəllim budur, - deyə kişi əlavə etdi.

O sözünü qurtarar-qurtarmaz qadın hönkürtüylə ağlamağa başladı. Kişiyə elə gəldi ki, qadın onun sözlərindən təsirləndiyi üçün ağlayır. Onu sakitləşdirməyə çalışdı. Amma mümkün olmadı, qadın hönkürürdü...

Kişi məcbur qalıb ayağa qalxdı və onun üzünü qapadığı əllərindən yapışlb, təskinlik verməyə çalışdı.

Qadın bir-iki addım geri çəkilərək qışqırdı:

- Toxunma mənə... Sən çox bədbəxt bir insansan... Gör kimlərin həyatını xilas edib, özünü məhv etmisən, ay adam...

Kişi çaşıb qalmışdı, onun nə dediyini, niyə belə etdiyini anlaya bilmirdi.

Qadın isə sakitləşmək bilmirdi, elə hey qışqıra-qışqıra deyirdi:

- Bədbəxt insan, gör sən nə etmisən, canını kimlərin yolunda qurban vermisən?!.. Sən mənə görə... mən əxlaqsıza görə, əhlikef, əyyaş kişilərə görə öz sağlamlığını qurban vermisən, ay biçarə... Sən günaha batmısan, bağışlanmayan bir günaha...

Sonra o, kişinin qarşısında diz çöküb, yumuruqlarıyla torpağı döyəcələyə-döyəcələyə sızıldayırdı.

Kişi onun dediklərindən heç nə başa düşmürdü. Handan-hana, o sakitləşib oturdu. Hıçqıra-hıçqıra, qırıq-qırıq danışmağa başladı:

- Görürsən? - İndi mən nə deyim, sizə? Heç olmasa, bircə yol söy, döy məni, qoy ürəyim sakitlik tapsın, - deyə qadın yalvarırdı...

Kişi əlinin arxasıyla yanmış çənəsini ovuşdurdu. Elə bil onun yaralarının yenidən qaysağını qopartdılar, xəfifcə inildədi. O, bir müddət susub qaldı. Sonra handan-hana başını qaldırıb qadından soruşdu:

- Siz sonradan maraqlandınızmı, sizi xilas edən o insan haradadır, ölüb, ya qalıb?

Qadın diksinən kimi oldu. Doğurdan da, o, bu vaxtacan bu barədə fikirləşməmişdi.

Kişi qadının susduğunu görüb, dərindən köks ötürdü və pıçıltıyla:

- Onda, bu barədə heç kəsə bir söz deməyin. Qoy, insanlar yaxşılıq etməyi özlərinə borc bilsinlər... yoxsa insanlıq məhv olub gedər.

Kişi bu sözləri deyib, tilovunu da yığışdırıb çayaşağı endi.

... Səhəri gün, o yuxudan duranda çayın qırağındakı alaçığı yerində görmədi... Onlar gecəykən çıxıb getmişdilər.